**Ulduz İltifat qızı Manafova**
*Kitabxana-resursları və informasiya-axtarış sistemləri kafedrası, dissertant*
*Ulduz_xanim@mail.ru*

# RESPUBLİKA KİTABXANALARINDA SƏNƏD-İNFORMASİYA FONDUNUN KOMPLEKTLƏŞDİRİLMƏSİ (M.F.AXUNDOV ADINA MİLLİ KİTABXANANIN İŞ TƏCRÜBƏSİ ƏSASINDA)

***Xülasə:*** *Məqalədə M.F.Axundov adına Milli Kitabxananın tarixi haqqında qısaca da olsa məlumat verilmiş, kitabxana fondunun komplektləşdirilməsinin ümumi metodologiyası göstərilmiş və kitabxana fondunda istifadə olunan düzülüş formaları qeyd edilmişdir. Həmçinin məqalədə müxtəlif illər üzrə M.F.Axundov adına Milli Kitabxananın fondunda olan informasiya resurslarının miqdar göstəriciləri də təhlil olunmuşdur.*

***Açar sözlər:*** kitabxana, fond, komplektləşdirmə, metodologiya.

**Giriş:** İnkişaf etməkdə olan müasir cəmiyyətin intellektual inkişaf potensialını və mənəvi dəyərlərini müəyyən edən, Respublikanın kitabxana arealının inkişaf etməkdə olan informasiya-resurs təkibinin zənginliyinə görə M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası mühüm əhəmiyyətə malikdir. Məqalədə əsas mövzu aspektinə keçməmişdən öncə Milli Kitabxananın tarixi haqqında qısaca məlumatları qeyd edək. Bildiyimiz kimi kitabxana 1922-ci ildə yaradılmış, 1923-cü ilin may ayının 23-də isə rəsmi açılışı olmuşdur. Kitabxananın yaranması ölkə əhalisinə kitabxana xidmətini təkmilləşdirməklə yanaşı, kitabxana işinin elmi-metodik mərkəzi kimi respublikanın informasiya resurslarının zənginliyinə görə elmi tərəqqinin gələcək inkişafına böyük təkan vermişdir [2].

**Əsas hissə:** Professor A.A. Xələfovun tədqiqatlarında qeyd edilir ki, M.F.Axundov adına Milli Kitabxana təsis ediləndə İmperator Texniki Cəmiyyətinin Bakı şöbəsinin kitabxanası tərəfindən 5000-ə yaxın kitab kitabxanaya hədiyyə olaraq verilmişdir. Kitabxana fəaliyyətə başladığı ilk dövrlərdə 20.441 nüsxədən ibarət ümumi sənəd resurslarına malik idi. Kitabxana yarandığı gündən iki mühüm funksiyanı yerinə yetirməyə başladı və respublikanın ən zəngin kitabxanası kimi dövlət kitabsaxlayıcıvəzifəsinə əməl etməklə, həm SSRİ Kitab Palatasından, həm də respublika nəşriyyatlarından pulsuz məcburi nüsxə almağa başladı. Professor A.Xələfovun "Azərbaycanda kitabxana işinin tarixi" adlı dərsliyində qeyd edilir ki, 1924-cü ildə Azərbaycan Dövlət Nəşriyyatının, 1925-ci ildə Azərbaycan Dövlət Kitab Palatasının və "Beynəlxalq kitab cəmiyyətinin" yaradılması ökəmizdə mövcud olan kitabxanaların sənəd-informasiya resurslarının daha da təkmilləşdirilməsinə və sayca artırılmasına mühüm şərait yaratdı. 1929-cu ilin tarixi statistik göstəricilərinə əsasən respublikaya daxil edilən ümumi kitabların sayı 47.095 nüsxə, xaric olunan yəni, göndərilən ki-

tabların sayı isə 52.085 nüsxə təşkil edir. M.F.Axundov adına Milli Kitabxananın fondunda 1927-ci ildə 5000 nüsxə, 1930-cu illərdə 64.700 nüsxə ümumi sənəd-informasiya bazası mövcud idisə 1990-cı illərdə bu rəqəm 987.559 nüsxəyə çatmışdır [2]. Bunun bilavasitə əsas səbəbi isə komplektləşdirmə və kitabişləmə şöbəsi tərəfindən həyata keçirilən sənədlərin əldə edilməsidir. Bütün bu qeyd etiyimiz tarixi faktların nəticəsi kimi məlum oldu ki, ölkədə mövcud olan kitabxana şəbəkələrinin resurs imkanları yerli və xarici nəşrlərlə dinamik şəkildə, davamlı proses olaraq komplektləşdirilərək inkişaf etmişdir. Kitabişləmə və komplektləşdirmə şöbəsi M.F.Axundov adına Milli Kitabxananın profilinə uyğun olaraq, fondun yeni ədəbiyyatla tam komplektləşdirilməsi üçün kitabxanaya daxil olan ədəbiyyatı elmi və texniki cəhətdən işləyərək, xidmət şöbəsinə təhvil verir. Şöbə eyni zamanda fondu ölkəmizdə və xarici dövlətlərdə nəşr edilən elmi-metodik, tədris, pedaqoji, ictimai-siyasi və digər sənədlərə aid sənəd-informasiya resursları ilə komplektləşdirir. Xüsusilə komplektləşdirmə işinə kömək üçün sorğu aparatı təşkil edilir, çap nəşrlərinin ümumi və fərdi uçotu təşkil edilir, ədəbiyyat elmi və texniki cəhətdən işlənir. Kitabxana fondunun dinamik şəkildə inkişafı oxuclara xidmət işinin həm kəmiyyət, həm də keyfiyyətcə yaxşılaşmasına səbəb olmuş və oxucu dairəsi xeyli genişlənmişdir. Müxtəlif illərin hesabatlarının statistik göstəricilərinə nəzər etdikdə bunun şahidi oluruq.

**Müxtəlif illər üzrə M.F.Axundov adına Milli Kitabxananın informasiya resurslarının miqdar göstəriciləri (2003-2012)**

*Cədvəl-1*

| İllər | Fonda daxil olan ədəbiyyatın ümumi miqdarı |
|---|---|
| 2003 | 11840 |
| 2004 | 12997 |
| 2005 | 11222 |
| 2006 | 11361 |
| 2007 | 26010 |
| 2008 | 24707 |
| 2009 | 15134 |
| 2010 | 16900 |
| 2011 | 17631 |
| 2012 | 19786 |

Qeyd. Cədvəldə qeyd olunan statistik göstəricilər M.F.Axundov adına Milli Kitabxananın müxtəlif illərə dair hesabtları ( 2003-2012) əsasında hazırlanmışdır.

Cədvəldən göründüyü kimi illər üzrə artım statistikasında sənədlərin artım dinamikası müşahidə edilir. Məhz bu proses kitabxananın resurs potensialının artımına əsaslı şəkildə nümunə kimi qeyd edilə bilər. Ümumilkdə qeyd



edək ki, təxminən 7 milyon nüsxəyə malik olan kitabxana resursu əsasən aşağıdakı düzülüş formalarında yerləşdirilmişdir. Buraya:

– sistemli düzülüş;
– əlifba-xronoloji düzülüş;
– inventar düzülüş;
– format düzülüşü;
– xronoloji düzülüş və s. aid edilir.

Ümumi sənəd kütləsi əsasən Azərbaycan, rus və ingilis dillərində sistemli qaydada düzülmüşdür.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 12 yanvar 2004-cü il tarixli "Azərbaycan dilində Latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" sərəncamı Azərbaycan kitabxanalarının, o cümlədən M. F. Axundov adına Milli Kitabxananın latın qrafikalı milli ədəbiyyat resursunun inkişafında və zənginləşməsində əvəzsiz rol oynamışdır. Bu sərəncama müvafiq olaraq 600 addan çox kitab, o cümlədən, "Dünya ədəbiyyatı kitabxanası" seriyasından olan 100 addan artıq nəşrlər çap olunaraq ölkənin müxtəlif kitabxanalarına təmənnasız olaraq göndərilmişdir.

M. F.Axundov adına Milli Kitabxananın komplektləşdirmə mənbələri aşağıdakılardır:

– Respublika nəşriyyatları - (Məcburi nüsxələr);
– Ölkədaxili kitab mübadiləsi;
– Beynəlxalq kitab mübadiləsi;
– Respublika kitab mağazaları;
– Ali Attestasiya Kommisiyası;
– Heydər Əliyev Fondu;
– Abunə yolu ilə;
– Hədiyyə edilən kitablar vasitəsilə;
– Müxtəlif səfirliklər, beynəlxalq təşkilatlar, elmi-tədqiqat institutları vasitəsilə və s.

Ümumilikdə komplektləşdirmənin metodikası: nəzəriyyə və sistemli yanaşma prinsipinə əsaslanır. Abunəçilər tərəfindən istifadəsinin intensivliyi nə qədər yuxarı olarsa o qədər də, kitabxana resursu daha qiymətli və səmərəli ola bilər. Komplektləşdirmənin ümumi metodikası texnologiyanın prosesinin ikili xarakterini nəzərə alaraq bir sıra ardıcıl spesifik əməliyyatlardan ibarətdir. Bu əməliyyatlar fondun təchiz edilməsini təmin edənlərə və onun təmizlənməsinə həmçinin, komplektləşdirməyə bölünür. Bunlar aşağıdakılardır:

1. Kitabxana fondunda sənədlərin ilkin seçilməsi üçün xarici informasiya axınlarının öyrənilməsi. Sənədlərin yayılmasının əsasında onun müəssisələrinin sisteminin ətraflı şəkildə öyrənilməsi;
2. Sənədlərin ilkin seçməsi - yəni sənədlərin əldə edilməsi üçün lazım olanların xarici axınında ilkin olaraq seçmə;
3. Əldə etmə üçün alınmış sənədlərin ilkin sifarişi;
4. Sənədlərlə kitabxanaların təchizatının sistemindən istifadə;

5. Fondun cari komplektləşdirməsinin kontrolu. Yeni daxil olmaların qəbulu; Fondun təmizlənməsini təmin edən əməliyyatlar bilavasitə onda boşluqların aradan qaldırılmasını təmin edir. Bunlara:
6. Boşluqların (boşluqlar) üzə çıxardılması üçün kitabxananın fondunun öyrənilməsi və istifadə olunmayanlar sənədlərin xaric edilməsi;
7. Sənədlərin ikinci seçməsi - qeyri-profil və köhnəlmiş sənədlərdən dokomplektovaniya və azad olma məqsədi ilə onun tərkibinin və istifadənin öyrənilməsinin nəticələrinə görə kitabxananın fondunda həyata keçirilən xaricolmalar;
8. Fondun komplektləşdirilməsinə qədər çıxarılan sənədlərin və kartotekanın siyahılarının tərtib edilməsi;
9. Lazımsız sənədlərin fonddan çıxarılması;
10. Fondun kompleklәşdirilməsi yolu ilə yeni sənədlərin əldə edilməsi nəticəsində əlavə komplektləşdirməyə nəzarət

Mövzunun müasir vəziyyəti barəsində danışdıqda qeyd edə bilərik ki, kitabxana resurslarının komplektləşdirilməsi onun formalaşdırılmasının tərkib hissəsi olmaqla bütün avtomatlaşdırılmış kitabxana prosesinin təşkilindən ibarətdir. Kitabxana resurslarının komplektləşdirilməsi və təşkili, oxuculara ədəbiyyat verilişi və tövsiyəsi, kitabxana-biblioqrafiya biliklərinin təbliğinin ənənəvi metodu ilə bərabər, avtomatlaşdırılmış elektron resursların müəyyən edilməsi, uçotu prosesinin həyata keçirilməsi və istifadəçilərə informasiyanın əldə olunması sahəsində özünəxidmətin monumental qaydada təşkili forması hesab edilir. Müsir dövrün əsas tələbi olaraq, Respublikanın əksər kitabxanaları bütün informasiya mübadiləsini qabaqcıl texnologiyalara əsaslanaraq qurmağı planlaşdırır. Bunun üçün də məlumatların toplanıb saxlanılması, axtarış sistemləri və informasiyaların ötürülmə qaydalarının qabaqcıl olması ilə yanaşı, kitabxana – informasiya və internet istifadəçisinin avtomatlaşdırılmış sistemi vahid formatda olmalıdır.

Müasir dövrdə bu sahə üzrə əsas istiqamətlərin müəyyən edilməsində və kitabxana resurslarının ümumi şəkildə idarə olunmasında komplektləşdiricilərin kitab işləmə keyfiyyəti, indeksləşdirmə məharəti, uçotun aparılması optimallığı əsas götürülür. Kitabxanaçı – komplektləşdiricinin fəaliyyət səmərəliliyi, sənədlərin işlənməsi tezliyi və şifrələnməsi keyfiyyəti, onlari resursunun struktur bölmələrinə məqsədyönlü çatdırılması ilə müəyyənləşir. Kitabxanalarda komplektləşdirmə şöbəsinin işçiləri kollektiv işləmək prinsipinə alışmalı, bütün qarşılıqlı iş proseslərinin monumental yerinə yetirilməsinə nail olmalıdır.

**2015-2019-cu illər üzrə M.F.Axundov adına Milli Kitabxananın elektron kataloq sistemində əks olunan ümumi sənəd-informasiya resurslarının statistik göstəriciləri**

*Cədvəl-2*

| İllər | Kitablar | Məqalələr | Kartoqrafik materiallar | Dövri mətbuat | Notlar | Əlyazma notlar | Biblioqrafik göstəricilər |
|---|---|---|---|---|---|---|---|
| 2019 | 2335 | 32739 | 1647 | 89 | 33 | 21 | 33 |
| 2018 | 4589 | 30237 | 303 | 22 | 25 | 10 | 49 |
| 2017 | 4724 | 27082 | 237 | 26 | 49 | 8 | 46 |
| 2016 | 5701 | 31842 | 493 | 23 | 26 | 5 | 47 |
| 2015 | 5846 | 31683 | 427 | 38 | 36 | 3 | 48 |



Qeyd: Cəvdəldə əks olunan məlumatlar M.F.Axundov adına Milli Kitabxananın elektron bazası əsasında tərtib edilmişdir [11].

Ümumilikdə komplektləşdirmə zamanı müxtəlif elm sahələrinə aid olan ədəbiyyatların miqdar göstəricisinə Respublikanın ən iri kitabxana-informasiya müəssisələrindən biri hesab edilən M.F.Axundov adınna Milli Kitabxananın nümunəsi əsasında baxaq.

**Müxtəlif elm sahələri üzrə M.F.Axundov adına Milli Kitabxananın fondunda əks olun ədəbiyyatın həcmi (2010-2015)**

*Cədvəl-3*

| Elm sahələri | Ümumi ədəbiyyatın həcmi ( nüsxə) |
|---|---|
| Təbiət elmləri üzrə | 285 |
| Texnika üzrə | 442 |
| Kənd təsərrüfatı üzrə | 282 |
| Səhiyyə üzrə | 395 |
| İctimai-humanitar elmlər üzrə | 5503 |
| Mədəniyyət, elm, maarif üzrə | 2470 |
| Filologiya üzrə | 2830 |
| İncəsənət üzrə | 800 |
| Biblioqrafik vəsaitlər üzrə isə | 3345 |

Qeyd. Cədvəldə qeyd edilən statistik göstəricilər M.F.Axundov adına Milli Kitabxananın 2010-2015 ci illərə dair hesabatları əsasında tərtib olunmuşdur [8].

Kitabxanaların komplektləşdirilməsi zamanı bütün proseslərin qanunauyğun olaraq həyata keçirilməsi kitabxana işi sahəsində qəbul edilən normativ-hüquqi aktlara əsaslanır. Azərbaycan Respublikasının “Kitabxana işi haqqında” Qanunundan məlumdur ki, kitabxana fondunun yaradılması və inkişafı insanlarda elmin, informasiyanın, mədəniyyətin, təhsilin, tərbiyənin formalaşmasının mühüm sahələrindən biri kimi qarşıda durur. Fondun mahiyyətini bilmədən praktiki əhəmiyyətini müəyyən etmək, formalaşdırılması istiqamətini dəqiqləşdirmək, inkişaf istiqamətlərini konkretləşdirmək qeyrimümkündür. Bu xarakterik xüsusiyyətlərin həllində kitabxana fonduna sistem baxımından yanaşılma mühüm rol oynayır. Sistemli yanaşma fondun əsas keyfiyyətini, əhəmiyyətini, məzmununu, yaranma prinsiplərini, təşkil olunma ünsürlərini xarakterizə etməyə imkan verir. Respublikasının Kitabxana işi haqqında qanununun ən böyük əhəmiyyət kəsb edən maddələrindən biri 15-ci maddə yəni “Kitabxanaların pulsuz məcburi nüsxələrlə təchizatı” adlanır. Adı çəkilən maddəyə müvafiq olaraq dövlət və qeyri-dövlət nəşriyyatları, nəşriyyat işi ilə məşğul olan poliqrafiya müəssisələri və digər hüquqi və fiziki şəxslər tərəfindən buraxılan çap məhsullarından 4 pulsuz məcburi nüsxə , qəzet jurnal və digər ardı

davam edən nəşr komponentlərindən isə 2 məcburi nüsxə Milli Kitabxanaya verilməsi nəzərdə tutulur [1].

**Nəticə:** M.F.Axundov adına Milli Kitabxananın fondunun formalaşması hələ keçmişə nəzər salsaq müxtəlif mənbələr vasitəsilə həyata keçirilmişdir. Hələ sovet hakimiyyəti illərində fondun komplektləşdirilməsi mənbələri aşağıdakı mənbələrdən həyata keçirilirdi: SSRİ Dövlət Kitab Palatası; Azərbaycan Nəşriyyatı; Kitabxana Kollektoru; beynəlxalq mübadilələr; kitab mağazaları; tarixi əlyazmalar və digər mənbələr. Adları qeyd olunan mənbələrin bəziləri bu gün də öz aktuallığını itirməmişdir. Bəzi mənbələr isə hazırda depozitar funksiyasını itirmişdir. Buna misal olaraq öz fəaliyyətini dayandırmış SSRİ Dövlət Kitab Palatasını göstərmək olar. Son illərdə kitabxana fondununun formalaşdırılmasının əsas mənbələri aşağıdakıları göstərmək olar: Heydər Əliyev Fondu; Ali Attestasiya Komissiyası Respublika kitab mağazaları; Respublika nəşriyyatları; ElmiTədqiqat İnstitutları; səfirliklər; xarici təşkilatlar; ölkədaxili mübadilə; beynəlxalq mübadilə; kitabaxanaya edilən bəxşişlər və s. hədiyyə yolu ilə daxil olan kitablar da fondun formalaşmasında az rol oynamır.

**İstifadə olunmuş ədəbiyyatın siyahısı**

1. Azərbaycan Respublikasının "Kitabxana işi haqqında qanun" u.-Bakı,1999.-1
2. Xələfov, A. A "Azərbaycanda kitabxana işinin tarixi" Dərslik, II hissə Bakı 2009.-126s.—13
3. Xələfov, A.A XXI əsrin əvvəllərində Azərbaycanda kitabxana işinin əsas istiqamətləri (mülahizələr, təkliflər, proqnozlar).-Bakı,2006.-106 s. S 65.
4. Xələfov, A. A Heydər Əliyev və Azərbaycanda kitabxana işi. Bakı: Azərnəşr, 2006.-312s.
5. Xələfov, A. A XXI əsrin əvvəllərində Azərbaycanda kitabxana işinin əsas inkişaf istiqamətləri (mülahizə, təkliflər və proqnozlar). –Bakı, 2006. -106s.
6. İsmayılov, X.İ Kitabxana-informasiya texnologiyaları:Dərs vəsaiti. Bakı, "Nurlar" nəşriyyat-poliqrafiya mərkəzi, 2009.-312 s.
7. İsmayılov, X.İ "Kitabxana işinin təşkili və idarə edilməsi" Dərslik. Bakı, "Nurlar" Nəşriyyat- Poliqrafiya Mərkəzi, 2010, 328s.
8. M.F.Axundov adına Milli Kitabxana hesabatları.-2010-2015-ci illər.-20
9. Tahirov, K. Dünya milli kitabxanaları. M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası: dərs vəsaiti. Azərb. Resp. Təhsil Nazirliyi, BDU.- Bakı: Bakı Universiteti, 2013.- 212 s.
10. Tahirov, K. Müasir dövrdə kitabxanalar üçün yeni çağırışların, yeni ideyaların və yeni tələblərin əsas istiqamətləri / Kərim Tahirov // Azərbaycan Milli Kitabxanasının Elmi Əsərləri ("Kitabxanalar üçün yeni çağırışlar, yeni ideyalar, yeni tələblər: kitab, mütaliə, innovasiyalar" mövzusunda beynəlxalq elmi-praktik konfransın materialları əsasında.- 2017.
11. Anl.az-34



*Улдуз Манафова*

**Пополнение документально-информационного фонда в библиотеках республики (на основе опыта Национальной библиотеки им. М.Ф.Ахундова)**

**Резюме**

*В статье дается краткая информация об истории создания Национальной библиотеки им. М.Ф.Ахундова, показана общая методика комплектования и отмечены формы размещения в библиотечном фонде. В статье также анализируются количественные показатели информационных ресурсов фонда Национальной библиотеки имени М.Ф.Ахундова за разные годы.*

***Ключевые слова:*** библиотека, фонд, кадровое обеспечение, методология.

*Ulduz Manafova*

**Completion of document-information fund in republican libraries (based on the experience of the National Library named after M.F. Akhundov)**

**Summary**

*The article gives brief information about the history of the National Library named after M. F. Akhundov, shows the general methodology of staffing and notes the forms of arrangement used in the library fund. The article also analyzes the quantitative indicators of information resources in the fund of the National Library named after M.F. Akhundov for different years.*

***Keywords:*** library, fund, complatation, methodology.

**Rəyçi:** t.ü.e.dok.,prof. X.İ.İsmayılov